# Pandemiyalarla mübarizə və daha sağlam və daha ədalətli dünyanın qurulması

Qlobal Fondun Strategiyası (2023-2028)

---

## Qısa xülasə



Qadınlar Qvineyada "Cissela Sağlamlıq Mərkəzi"ndə tibbi konsultasiya üçün növbə gözləyir. *Albert Masias/MSF*

Son 20 ildə Qlobal Fond tərəfdaşlığı 44 milyon insan həyatını xilas etmiş və Qlobal Fondun investisiya qoyduğu ölkələrdə İİV, vərəm və malyariyanın pik səviyyəyə çatdığı vaxtdan bəri bu xəstəliklərdən ölüm hallarını 46% azaltmışdır.1 Qlobal Fondun icraçı hökumətlər,2 vətəndaş cəmiyyəti, texniki tərəfdaşlar, inkişaf üzrə tərəfdaşlar,3 özəl sektor və bu üç xəstəlikdən əziyyət çəkən insan və icmalardan4 ibarət tərəfdaşlığı olaraq biz sübut etmişik ki, biz birgə çalışaraq əngəlləri aşa, həyatları xilas edə və bu üç dəhşətli pandemiyanın gedişatını kəskin dərəcədə dəyişə bilərik.

İndi biz yol ayrıcında dayanmışıq. COVİD-19 dağıdıcı təsir göstərməklə, mövcud bərabərsizlikləri dərinləşdirmiş, vacib resursların istiqamətini dəyişmiş, İİV, vərəm və malyariyanın zəruri profilaktika və müalicə fəaliyyətlərinə çıxışı zəifltmiş və həssas kateqoriyadan olan insanlar üçün riski daha da böyütmüşdür.   2020-ci ildə, tariximizdə ilk dəfə olaraq hər üç xəstəlik üzrə əsas proqram nəticələri aşağı düşmüşdür.1 Səkkiz il qaldığı bir vaxtda, COVİD-19 bizi 2030-cu ilə qədər bu üç pandemiyaya son qoymağı hədəfləyən Dayanıqlı İnkişaf Məqsədinə (DİM) doğru getdiyimiz yoldan xeyli geri atmışdır.

Bu çətinliklərin öhdəsindən gəlmək, İİV, vərəm və malyariya ilə mübarizə üzrə irəliləyişi əvvəlki məcrasına qaytarmaq və universal tibbi təminata (UTT) nail olunması ilə bağlı DİM hədəfinə töhfə vermək üçün Qlobal Fond yeni iddialı bir Strategiya işləyib hazırlamışdır.  Öz təsirimizi daha da artırmaq məqsədilə, sağlamlığı və rifahı daha yaxşı təmin edə bilən daha inklüziv, davamlı və dayanıqlı səhiyyə sistemləri (DDSS) qurmaq və pandemiyaların qarşısını almaq, onları müəyyən etmək və onlara qarşı cavab tədbirləri görmək üçün biz ədalətlilik, dayanıqlılıq, proqram keyfiyyəti və innovasiya məsələlərinə daha böyük diqqət ayıracaq, insan hüquqları və genderlə bağlı maneələri aradan qaldırmaq istiqamətində daha qətiyyətli tədbirlər görəcək və İİV, vərəm və malyariyaya qarşı mübarizəni daha da gücləndirəcəyik. Bizim hədəfimiz hamı üçün daha yaxşı və daha ədalətli səhiyyənin mövcud olduğu, QİÇS, vərəm və malyariya yükündən azad olan dünyadır.

# 44 milyon həyat

**Qlobal Fond tərəfdaşlığı vasitəsilə xilas edilib**

İctimai sağlamlığa təhlükə olan İİV, vərəm və malyariyaya son qoymaq missiyamıza nail olmaq üçün biz daha sürətli irəliləyişə imkan verən, insan yönümlü katalizator investisiyalara daha böyük diqqət ayırmalıyıq. Biz hər üç xəstəlik üzrə yeni yoluxmaları azaltmağa, struktur xarakterli maneələri aradan qaldırmağa və profilaktika vasitələrində və yanaşmalarında innovasiyalardan istifadə etməyə xüsusi diqqət yetirəcəyik.  İİV-lə mübarizə sahəsində biz diqqətimizi əsas və digər ən həssas qruplara xüsusi diqqət yetirməklə, insanların ehtiyaclarına daha yaxşı uyğunlaşdırılmış xidmətlərin daha ədalətli şəkildə göstərilməsi modelləri vasitəsilə İİV-in profilaktikası və müalicəsi xidmətləri ilə təminatdakı boşluqları aradan qaldırmağa yönəldəcəyik. Vərəmlə mübarizə sahəsində biz vərəmin profilaktikası və müalicəsi proqramlarına çıxışı və bu proqramların keyfiyyətini məhdudlaşdıran davamlı həssaslıq, maneə və boşluqları aradan qaldırmalıyıq.   Malyariya ilə mübarizə sahəsində biz ayrı-ayrı icmaların ehtiyaclarına və olduqları şəraitə daha yaxşı uyğunlaşdırılmış, daha insan yönümlü və kompleks müdaxilələrin tətbiqinə, xidmətlərə ədalətli çıxış imkanlarına olan maneələrin aradan qaldırılmasına, xidmətlərin keyfiyyətinin artırılmasına, rezistentliklə mübarizəyə və xəstəliyin aradan qaldırılmasına aparan yolun nümayiş etdirilməsinə diqqət yetirəcəyik. İİV, vərəm və malyariya kimi güclü patogenlərlə mübarizədə orta mövqe yoxdur: Biz ya qalib gələcəyik, ya məğlub olacağıq. Bizim yeni Strategiyamızın mahiyyəti xüsusilə ən yoxsul, ən həssas və ən təcrid olunmuş icmalarda hələ də milyonlarla insanın həyatına son qoyan üç pandemiyanı - İİV, vərəm və malyariyanı məğlub edə bilmək üçün birgə səylərimizi daha da artırmaqdan ibarətdir. Qlobal Fond heç bir yerdə heç bir şəxsin İİV, vərəm və malyariya təhlükəsi ilə üzləşməməsini təmin etmək üçün yaradılmışdır və sonda bizim nailiyyətlərimiz də bu prizmadan qiymətləndiriləcək. Biz əvvəlki dinamikanı bərpa etməli və bu məqsədə nail olmalıyıq.

Əsas məqsədimizə çatmaqdakı uğurumuz unikal tərəfdaşlığımızın əsas güclü tərəflərindən və üstünlüklərindən istifadə edən və bir-birini gücləndirən dörd köməkçi məqsədlə şərtlənəcək.

Birincisi, biz İİV, vərəm və malyariya, habelə koinfeksiyalar və yanaşı xəstəliklər daxil olmaqla, əlaqəli patologiyalarla mübarizədə daha böyük nəticənin əldə edilməsinə imkan verən investisiyalar vasitəsilə səhiyyə sistemlərinin davamlılığını və dayanıqlılığını daha da artıracağıq. Biz fərdlərin tibbi ehtiyaclarının bütöv şəkildə ödənilməsi üçün daha təcrid olunmuş müdaxilələrdən daha kompleks, insan yönümlü profilaktika, müalicə və qayğı modellərinə keçidi sürətləndirməyə çalışacağıq.

Diqqətimizi ən yoxsul və ən təcrid olunmuşlara yönəltməklə, biz UTT-ni həqiqətən təmin etmək istiqamətindəki səylərində ölkələrə dəstək verəcəyik.

İkincisi, yeni Strategiya təsirə məruz qalan icmaların iştirakını və liderliyini maksimum dərəcədə artırmaq, heç kimin geridə buraxılmamasını və xidmətlərin ən çox risk altında olanların ehtiyaclarına cavab verməsini təmin etmək kimi açıq bir məqsəd irəli sürməklə, Qlobal Fond tərəfdaşlığının unikal üstünlüklərinə əsaslanır. Bütün səylərimizin mərkəzində icmaların olması prinsipi yeni Strategiyanın əsasını təşkil edir.



Hindistanın Meqhalaya ştatında icma səhiyyə işçiləri xəstələrlə konsultasiyalar aparmaq üçün kəndə daxil olur.
Qlobal Fondun investisiya qoyduğu ölkələrdə iki milyondan çox icma səhiyyə işçisi həssas və əlçatmaz icmalar üçün xəstəliklərə nəzarət, profilaktika, müalicə və qayğı xidmətlərinin göstərilməsində ön xətdə yer tuturlar.
*Qlobal Fond/Vincent Becker*

Üçüncüsü, Strategiyada səhiyyə sahəsində ədalətlilik, gender bərabərliyi və insan hüquqları aspektlərinin İİV, vərəm və malyariya üzrə müdaxilə tədbirlərinə inteqrasiyasını artırmaqla (o cümlədən, o cümlədən ədalətsizlik hallarını müəyyən etmək və onlara qarşı tədbir görmək üçün məlumatlardan istifadəni artırmaqla, insan hüquqları və genderlə bağlı maneələri aradan qaldırmaq üçün hərtərəfli proqramları genişləndirməklə və Qlobal Fondun vasitəsilə zərərli qanun, siyasət və təcrübələrə etiraz bildirməklə), bu üç aspekti maksimum səviyyədə təmin etməyin vacibliyi təkrarın vurğulanır.

Dördüncüsü, Strategiya xüsusilə COVID-19-un səbəb olduğu geriləmələr fonunda əlavə resursların cəlb edilməsinin zəruriliyini qəbul edir. Pandemiya səbəbindən icraçı və donor ölkələrin üzləşdiyi misli görünməmiş maliyyə problemlərini dərk edərək, biz əlavə yerli vəsaitləri və donor vəsaitlərini cəlb etmək səylərimizdə qətiyyətli və innovativ olacaq, eyni zamanda, istifadə olunan vəsaitlərdən daha böyük nəticənin əldə edilməsinə səylə çalışacağıq.

Bundan əlavə, yeni Strategiya tərəfdaşlığımızın təcrübəsini və inklüziv modelini bu yeni zərurətə tətbiq etmək və bununla da İİV, vərəm və malyariya ilə mübarizə üzrə irəliləyişin qorunub saxlanmasına kömək etmək üçün pandemiyaya hazırlıq və cavab tədbirləri (PHC) məqsədini irəli sürməklə və inkişaf etdirməklə, qlobal sağlamlıq kontekstində baş verən kəskin dəyişikliklərə birbaşa cavab kimi çıxış edir.  PHC məqsədimiz Qlobal Fonda imkan verir ki, COVİD-19-la qlobal mübarizədə tərəfdaşlarımızla birlikdə öz töhfəsini versin, səhiyyə sistemlərinin və İİV, vərəm və malyariya proqramlarının pandemiya təhlükələrinə dayanıqlılığını gücləndirsin, ölkələrə və icmalara pandemiya potensiallı yeni patogenlərin profilaktikasında, aşkarlanmasında və onlarla mübarizədə dəstək versin və iqlim dəyişikliyi nəticəsində sağlamlıq üçün yaranan çoxşaxəli təhlükələrlə mübarizə aparsın.



Kolumbiyanın paytaxtı Boqotada İİV məsələləri üzrə fəal və icma səhiyyə işçisi olan Kenny Espinosa TeCuidamos.com adlı applikasiyadan istifadə qaydasını nümayiş etdirir. Qlobal Fondun investisiyası ilə hazırlanmış applikasiya kişilərlə cinsi əlaqədə olan kişilər, transgenderlər və digər həssas əhali qrupları üçün İİV-in diaqnostikası və profilaktikası xidmətlərinə məsafədən çıxış imkanını təmin edir.  *Qlobal Fond/Joe Miguel Rodriguez/Panos*

Son olaraq, bu Strategiyanın həyata keçirilməsi və məqsədlərimizə çatmağımız müstəsna tərəfdaşlığımızın hər bir üzvünün öz xüsusi və tamamlayıcı rolunu oynamasından asılı olacaq. Qlobal Fond modelinin uğuru ölkə səviyyəsində sahiblənmə və tərəfdaşlıq prinsiplərinə əsaslanır. İcraçı hökumətlər insanların və icmaların ehtiyaclarına cavab verən güclü, ədalətli səhiyyə sistemlərini və xəstəlik proqramlarını həyata keçirmək, icmalar isə öz ehtiyaclarının ən yaxşı şəkildə necə ödənəcəyi ilə bağlı istiqamət vermək və heç kəsin arxada buraxılmamasını təmin edən proqramlar icra etmək kimi mühüm vəzifə daşıyırlar.

Vətəndaş cəmiyyəti, texniki tərəfdaşlar, inkişaf üzrə tərəfdaşlar və özəl sektorun hər birinin də özünəməxsus rolu vardır. Yeni Strategiya ümumi uğurumuz naminə aşkarlığı və ortaq məsuliyyəti təmin etmək məqsədilə hər bir tərəfdaş üçün aydın vəzifə və məsuliyyəti müəyyən edir. Strategiya həm də təsiri maksimuma çatdırmaq və icra tempini artırmaq üçün iş tərzimizi necə dəyişməli və əməkdaşlığımızı necə gücləndirməli olduğumuzu göstərir. 2030-cu ilə cəmi səkkiz il qaldığı bir vaxtda bizim itirəcək zamanımız yoxdur.

## Qlobal Fondun Strategiya Çərçivəsinə ümumi baxış

Köməkçi məqsədlərin icmalı da daxil olmaqla, tam Strategiya Çərçivəsi ilə Qlobal Fondun internet səhifəsində tanış olmaq mümkündür.[5]

**ƏSAS MƏQSƏDİMİZ** ▶

**QİÇS, VƏRƏM VƏ MALYARİYA YA SON QOYMAQ**

**İNSANLARLA VƏ İCMALARLA İŞLƏMƏK VƏ ONLARIN SAĞLAMLIQLA BAĞLI EHTİYACLARINI ÖDƏMƏK**

BİR-BİRİNİ GÜCLƏNDİRƏN KÖMƏKÇİ MƏQSƏDLƏR ▶

- **Təsir, davamlılıq və dayanıqlılığı təmin etmək üçün insan yönümlü kompleks sistemlərin gücünü maksimum artırmaq**
- **Heç kəsin arxada buraxılmaması üçün ən çox təsirə məruz qalan icmaların iştirakını və liderliyini maksimum səviyyəyə çatdırmaq**
- **Səhiyyə sahəsində ədalətlilik, gender bərabərliyi və insan hüquqları aspektlərini maksimum təmin etmək**

**Daha çox resurslar cəlb etmək**

İNKİŞAF EDƏN MƏQSƏD ▶

**Pandemiyaya hazırlıq və cavab tədbirlərinə töhfə**

İNKLUZİV QLOBAL FOND TƏRƏFDAŞLIĞI MODELİ VASİTƏSİLƏ REALLAŞDIRILIR ▶

**Tərəfdaşlığa şərait yaradan amillər**

2030 DİM hədəflərinə doğru irəliləyişi maksimuma çatdırmaq üçün ölkələrə məxsus güclü planların reallaşdırılmasına əlavə resursların cəlb edilməsi və effektiv şəkildə investisiya olaraq qoyulması

Ölkə səviyyəsində sahiblənməyə dəstək olaraq aydın vəzifə və məsuliyyətləri müəyyən etməklə, Qlobal Fond Tərəfdaşlığı tərəfindən həyata keçirilir

## Bu yeni Strategiyanın fərqli cəhəti nədir?

İlk növbədə, nəyin dəyişməz qaldığını vurğulamaq vacibdir. Qlobal Fondun əsas məqsədi yenə də QİÇS, vərəm və malyariyaya son qoymaqdır. Qlobal Fond tərəfdaşlığı məhz bu məqsədlə yaradılmışdır və bizim uğurumuza məhz bu meyara əsasən qiymət veriləcək. Əsas fəlsəfəmiz də dəyişməz qalır: Qlobal Fond tərəfdaşlıq formasında fəaliyyət göstərir və icraçı hökumətlərə, təsirə məruz qalmış icmalara və digər ölkədaxili maraqlı tərəflərə bu üç xəstəliklə mübarizədə lazımlı olan və özlərinin müəyyən etdiyi vasitələrə malik olmaqda dəstək vermək yolu ilə nailiyyət əldə edir. Biz yenə də əsas diqqəti nəticələrə yönəldirik: Bizim fəaliyyətimiz sonda xilas edilmiş həyatlar və qarşısı alınmış infeksiyalar əsasında qiymətləndiriləcək.

Lakin fərqli məqamlar da vardır – bu fərqlər o qədər çoxdur ki, tam siyahını vermək üçün Strategiyanın Təsviri Hissəsində göstərilənlərin çoxunu təkrar qeyd etmək lazım gələ bilər. Lakin aşağıda nümunə olaraq, icra tempini artırmaq məqsədilə iş tərzimizi dəyişəcək Qlobal Fond tərəfdaşlığı Strategiyasının 10 aspekti təqdim olunur:

1. **Hər üç xəstəlik üzrə profilaktikaya diqqətin artırılması.** Biz yoluxmaların azaldılmasına nisbətən həyatların xilas edilməsində daha yaxşı irəliləyiş əldə etmişik, lakin pandemiyaya son qoymaq üçün yeni yoluxmaları kəskin dərəcədə azaltmalıyıq (o cümlədən əsas və həssas əhali qrupları arasında).

2. **Kompleks və insan yönümlü xidmətlərə daha çox əhəmiyyət verilməsi,** insanları çoxsaylı patogenlərdən qoruyan, onların ehtiyaclarını bütöv şəkildə qarşılayan və hamı üçün sağlamlıq və rifahı dəstəkləyən DDSS qurmaq üçün xəstəliklər üzrə təcrid olunmuş yanaşmalardan imtina edilməsi.

3. **İcma səhiyyə sistemlərinin inkişaf və inteqrasiyasının dəstəklənməsinə daha sistemli yanaşmanın tətbiqi,** onların bu üç xəstəliklə mübarizədəki və sistemin davamlılığının və dayanıqlılığının artırılmasındakı vacib rolunun tanınması.

4. **Xəstəliklərlə yaşayan və onların təsirinə məruz qalan icmalarının rolunun və söz haqqının artırılması,** təsirə ən çox məruz qalan icmaların bütün səylərimizin mərkəzində olması üçün Qlobal Fond tərəfdaşlığının bu unikal üstünlüyünün gücləndirilməsi və icmaların effektiv iştirakı və liderliyi qarşısında duran maneələrin aradan qaldırılması.

5. **Bərabərsizliklərin, insan hüquqları və genderlə bağlı maneələrin aradan qaldırılması üçün fəaliyyətin gücləndirilməsi,** təcrübəmizə əsaslanaraq və iddialarımızı yüksəldərək cari fəaliyyətlərin genişləndirilməsi və gücləndirilməsi.

6. Əldə etdiyimiz irəliləyişin sarsıntı və geriləmələrə tab gətirə bilməsini və tempin qoruyub saxlanmasını təmin etmək məqsədilə **proqram və maliyyə dayanıqlılığına daha böyük diqqət yetirilməsi**.

7. **İnnovasiyaların ədalətli tətbiqinin və onlara ədalətli çıxışın sürətləndirilməsinə**, innovasiyaların onlara ən çox ehtiyacı olanlara tətbiqinin qarşısında duran maneələri cəld aradan qaldırmaq məqsədilə tərəfdaşlarla birgə ümumi prosesin nəzərdən keçirilməsinə **daha çox diqqətin artırılması**.

8. Yüksək keyfiyyətli və təsnifləşdirilmiş məlumatların sürətli yaradılması, təhlili və istifadəsinə imkan verən sistem və imkanlara investisiyalar qoymaqla, **məlumat əsaslı qərar qəbuluna daha böyük əhəmiyyət verilməsi**.

9. Pandemiyaların İİV, vərəm və malyariyaya təsirini, Qlobal Fondun bu sahədə unikal mövqeyini nəzərə alaraq, vəzifə və məsuliyyətlərin tərəfdaşlarımızla əməkdaşlıq şəraitində müəyyənləşdirilməsinin zəruriliyini etiraf edərək, **Qlobal Fondun tərəfdaşlığının pandemiyaya hazırlıq və cavab tədbirlərində oynaya biləcəyi və oynamalı olduğu rolun açıq şəkildə tanınması.**

10. Hazırkı Strategiyanın həyata keçirilməsində qarşılıqlı məsuliyyətimizi təmin etmək üçün **Strategiyanın bütün aspektləri üzrə Qlobal Fond tərəfdaşlarının vəzifə və məsuliyyətlərinin aydın şəkildə müəyyən edilməsi.**




Madaqaskarda əynində fərdi mühafizə vasitəsi (FMV) olan səhiyyə işçisi. COVİD-19 pandemiyası ölkənin səhiyyə sisteminin, o cümlədən İİV, vərəm və malyariya kimi digər xəstəliklərlə mübarizə qabiliyyətinin üzərinə əlavə yük qoyub. *Dünya Bankı/Henitsoa Rafalia*

1 Qlobal Fondun 2021-ci il üzrə nəticələrini əks etdirən hesabat. Qlobal Fond, 2021.

2 İcraçı hökumətlərə milli, submilli və muxtariyyət səviyyələrində hökumətlər daxildir.

3 İnkişaf üzrə tərəfdaşlar Qlobal Fondun donorları, ikitərəfli proqramları olan donorlar və təcrübə ilə töhfə verən təşkilatlar da daxil olmaqla, resurslar və təcrübə (və çox vaxt yerlərdə icra imkanları) vasitəsilə töhfə verən ikitərəfli və çoxtərəfli təşkilatları əhatə edir. Onlara ayrıca kateqoriyadan olan Qlobal Fondun texniki tərəfdaşları daxil deyil.

4 İİV, vərəm və malyariya ilə yaşayan və ya onların təsirinə məruz qalan icmalar, o cümlədən əsas və həssas əhali qrupları.

5 https://www.theglobalfund.org/media/11223/strategy_globalfund2023-2028_framework_en.pdf